# Tariximizin mühafizəçisi

***"Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün yeni-yeni muzeylər lazımdır və bu muzeyləri qoruyub saxlamaq vətəndaşlıq borcumuzdur".***

**Heydər Əliyev.**

Muzeylər hər bir xalqın, millətin çoxəsrlik tarixinin necə yollardan keçməsini bir sözlə keçmişini, bu gününü əks etdirir. Muzeylər tarixin daş yaddaşıdır. Çünki bütün tarixi məlumatlar, hadisələr dərinliyi və dəqiqliyi ilə muzeylərdə yaşayır, qorunur. Bunun üçün hər bir xalq təbii irsinin qorunması, dövlətin, millətin xoş gələcəyi naminə bütün qiymətli sərvətlərini muzeylərə həvalə edir. Muzeylər ən güvənli mühafizə müəssisəsi, hər bir xalq üçün müqəddəs məkandır desək, yanılmarıq.

Cəmiyyətimizin təkmilləşməsi, tariximizin yaşadılması, gələcək nəsillərə düzgün şəkildə çatdırılmasında, mənəvi cəhətdən inkişafında muzeylərin böyük rolu vardır. Çünki muzeylər tarixi keçmişimizi, müasir həyatımızı, iqtisadi, elmi və mədəni sahədəki bütün nailiyyətlərimizi əks etdirən, gələcək nəsillərə qoruyub saxlayan ən güclü, ən etibarlı müəssisədir. Muzeyimiz bütün bu sadaladığım hər bir işin öhdəsindən layiqincə gəlmək üçün kollektiv sürətdə bütün var qüvvəsini ortaya qoymaqla ,gələcək nəsillər üçün ən böyük tarixi məktəbin materiallarını qorumaqdadır. Son zamanlar muzey işçiləri məktəblilərlə,gənclərlə daha fəal iş apararaq onların əmək, estetik, əxlaq, vətənpərvərlik, qədim tariximizə dərindən marağın formalaşmasında bütün səylərini əsirgəmir. Muzeyimiz 1400-ə yaxın tarixi və elmi əhəmiyyətli, qiymətli sərvətləri, incilər ocağıdır.



Demək olar ki, yerli əhalinin o cümlədən, məktəblilərin yardımı ilə tarixi, elmi əhəmiyyətli, maddi-mənəvi sərvətlərin toplanılması ilə eksponatlarının sayını artırmaqdayıq. Muzey əhəmiyyətli maddi-mənəvi sərvətlərin muzeyə gətirilməsini təmin və təşkil etmək, onları mühafizə edib gələcək nəsillərə çatdırmaq muzey işçilərinin ən ümdə vəzifəsidir. Hərtərəfli fəaliyyəti ilə muzeyimiz bu gün tarixi nümunələrimizin mühafizəsi, təbliği işi ilə bərabər digər iş prinsiplərini əsas məqsəd tutaraq mədəniyyətimizi əks etdirən bir çox layihələr həyata keçirməkdədir. Tariximizi yaşatmaqla bərabər mədəni irsimizi, mədəniyyətimizi təbliğ edən Qəbələ Muzeyi ənənəvi olaraq hərtərəfli şəkildə geniş fəaliyyət yolundadır. Arxeoloji, etnoqrafiq tarixi eksponatları təbliğ və nümayiş etdirməklə yanaşı elm, təhsil, səhiyyə, mədəniyyət sahəsindəki irəliləyişləri əhatəli şəkildə tamaşaçılara çatdırmaqdadır.

Ədəbi-bədii vikrorinalar, bədii qiraət saatlarında fərqlənən məktəblilər üçün muzeyimiz xüsusi hədiyyələr verir. Qədim kitablardan ibarət sərgilər zamanı xüsusu mütaliə üçün məktəblilərə geniş şərait yaradılır.

Gənc nəslin tariximizi yaxşı mənimsənilməsi işində var qüvvələri ilə çalışırlar. Bu isə tariximizin yaşadılması, qorunması, tədqiqi, təbliği üçün əsas amillərdən biridir.

Ulu öndərimiz Heydər Əliyev Azərbaycana rəhbərliyi zamanı, - 04.01.1980-ci ildə hər bir rayonda tarix-diyarşünaslıq muzeyinin yaradılması haqqında qərar vermiş və muzeylərin xalqın həyatında önəmli yer tutduğunu söyləmişdir.

1980-ci il ilk olaraq altı rayonda tarix-diyarşünaslıq muzeyi yaradılmışdır. Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi də həmin altılıqda olan ilk muzeylərdəndir. Ümumiyyətlə ulu öndərin tariximizə, mədəniyyətimizə diqqət və qayğısının nəticəsində 1980-ci ildə Azərbaycan Resbublikasında muzey mədəniyyəti formalaşdı. Bu yerdə istərdim bir tarixi faktı da nəzərinizə çatdırım ki, 1940-cı ildə Azərbaycan Tarixi Muzeyində " Sovet Azərbaycanının 20 illiyi" sərgisində ümummilli liderimiz Heydər Əliyev 17 yaşında ilk olaraq bələdçi vəzifəsində çalışmışdır.

Respublikamıza gələn hər bir qonaq, xarici vətəndaş Azərbaycan tarixi haqqında geniş məlumatları məhz muzeylərdən əldə edirlər. Bu gün tariximizin düzgün təbliğində, bu tarixin qorunaraq gələcək nəsillərə düzgün şəkildə çatdırılmasında muzeylərin əhəmiyyətli rolu əvəzsidir. Bu işdə hər bir muzey işçisinin vətəndaşlıq və vəzifə borcudur ki, əzm və fədakarlıqla öhdəliklərinə düşən işi layiqincə yerinə yetirsinlər. Çünki keçmişimizi qorumalıyıq ki, bu günümüzü də gələcək nəsillərə lazımi şəkildə çatdıraq. Bütün bunlar da muzeylərdə yaşayır. Buna görə deyə bilərik ki, muzeylər maddi, mənəvi sərvətlərimizin, tariximizin ən inamlı mühafizəçisidir. Muzeylər xalqımızın tarixini qorumaqla, yaşatmaqla yanaşı milli ənənələrimizi təbliğ edir. Muzeylər, o cümlədən muzey işçiləri tariximizin mühafizəçisi kimi öhdəsinə düşən ən çətin və şərəfli peşəni yerinə yetirməkdədir.

**İlhamə SEYİDOVA,**
**Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin elmi işçisi.**

## Təsərrüfat xəbərləri

### Baramaçılıq

Bu ilki mövsümdə Qəbələ rayonunda yaş barama istehsalının 11.2 tona çatdırılması nəzərdə tutulur. Barama yetişdirilməsi ilə əlaqədar 70 kümçü ailəsi ilə müqavilə bağlanılıb, onlara 280 qutu, yəni 4.92 kiloqram ipəkqurdu paylanılıb. Ümumiyyətlə, cari mövsümdə Qəbələdə baramaçılıq sahəsində 120-dən çox kənd sakininin məşğulluğu təmin olunub. Hal-hazırda rayonda ipəkqurdunun yemləndirilməsi təlimata uyğun aparılır.



### Tütünçülük



Qəbələ rayonu ərazisində əvvəlki illərdə olduğu kimi cari ildə də tütün istehsalı planlaşdırılmışdır. Bu məqsədlə əvvəlcədən Berley, Virciniya və digər sortlara aid toxumlardan istifadə etməklə şitilliklər salınmış, suvarılması mümkün olan 15 ha ərazi seçilmiş, sahənin hazırlanması işləri aparılmış və artıq əkin prosesinə start verilmişdir. Bu il fermerlər nəzərdə tutulan sahədən 20 ton quru tütün istehsal etməyi qarşılarına məqsəd qoymuşlar.

## Zona birinciliyi

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin əhatə etdiyi rayonların ümumtəhsil müəssisələri arasında "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının zona birinciliyi keçirilmişdir. Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Təhsil, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə birinciliyin keçirilməsində əsas məqsəd şagirdlərin fövqəladə hallara hazırlıqla bağlı fiziki və intellektual səviyyəsinin yoxlanılması, məktəblilərdə şəxsi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin artırılması və sağlam həyat tərzinin aşılanmasından ibarətdir. İştirakçılar əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq ulu öndərə öz ehtiramlarını bildirmişlər. Tədbirdə çıxış edənlər yarışın əhəmiyyətindən danışmış, iştirakçılara uğurlar arzulamışlar. "Kombinə edilmiş yanğın estafeti", "Manеələr zolağı" və "Komandaların təqdimatı" adlı üç mərhələdən ibarət yarışların yekununa əsasən, Qəbələ rayon H. Rəşidov adına Vəndam qəsəbə 2



saylı tam orta məktəb I yeri, İsmayıllı şəhər N. Behdiyev adına 6 saylı tam orta məktəb II yeri, Qobustan rayon R. Babaşov adına Cəmcəmli kənd tam orta məktəb isə III yeri tutub. Yarışda fərqlənmiş komandalar müvafiq yerlər üzə kubok və diplomlarla təltif olunub. Birinci yeri tutan komanda "Gənc xilasedici və yanğınsöndürən" yarışlarının respublika birinciliyində iştirak etmək hüququ qazanıb.

## Qədim Qəbələ

Antik dövrdə Albaniyada aynianlar, anaraklar, parrasilər, didurllar, lipenlər, leqlər və başqa tayfalar yaşayırdılar. Kaspi sahilinin cənub-qərb bucağında kaspilər (xəzərlər) daha doğrusu onların bir qismi məskunlaşmışdır. Kaspilər haqqında həm qədim şərq mənbələri, həm də antik müəlliflər danışırlar. Kaspi dənizinin adının onların adından alınması şübhəsizdir. Mənbələr əsasında məlum olur ki, kaspilər əkinçiliyi, maldarlığı, balıqçılığı, sənətkarlığı, ticarəti, habelə gəmiçiliyi və dənizçiliyi yaxşı bilən xalq idi.

Arami sənədlərindən bizə məlumdur ki, Misirdə hərbi kolonistlərin, o cümlədən kaspilərin də kifayət dərəcədə böyük məskənləri var idi. Burada kaspilər gəmilərin hazırlanması sahəsində çalışırdılar.

Qədim tarix mənbələrinə görə kaspilər güman ki, hələ son antik və erkən orta əsrlər zamanında Beyləqan zonasında yaşamışlar.

Savdeylər (Sodeylər) alban tayfalarından biri idi. Onları görünür, Pilininin xatırladığı Sodilərlə eyniləşdirmək lazımdır. Alban tayfaları sırasında qardımanlıları və herləri də xatırlatmaq lazımdır. Güman etmək olar ki, alban tayfalarının etnogenezində kellər, leqlər, didurlar, cibilər, lipinlər və başqa tayfalar müəyyən rol oynamışdır. Ola bilər ki, onların bir qismini alban etnik elementlərinin özünə aid etmək lazımdır.

Bizim alban tayfaları haqqında olan bilgilərimizin hamısı onları müəyyənliklə Cənubi Qafqazın cənub-şərq hissəsinin köklü əhalisi hesab etməyə imkan verir.

Ola bilsin ki, albanlar bu massivdə daha iri tayfa idi. Bəlkə buna görə bizim ölkə Albaniya adlanmağa başlanmışdır.

Lakin bu da tamamilə mümkündür ki, bu tayfanın özü adını ölkənin adından almışdır. "Albaniya" adının yazılması sahəsindəki bir çox cəhdlərə baxmayaraq, hələlik bir nəticə hasil olunmamışdır.

Qafqaz Albaniyası tayfalarının dilləri yuxarıda dediyimiz kimi, şübhəsiz, şimal-şərq Qafqaz dilləri ailəsinə aiddir. Lakin qeyd etməmək olmaz ki, qədim Albaniya etnik tərkibinə görə kifayət dərəcədə rəngarəng ölkə idi. Burada e. ə. son əsrlərdə eramızın ilk yüzilliklərində bir neçə dəfn adətləri mövcud olmuşdur. Məsələn, torpaq quyu, çiy kərpic, küp, təknə, katakomba qəbirləri aşkara çıxarılmışdır. Bu hal ölkə əhalisinin çox tayfaları və etnik cəhətdən rəngarəng hesab etməyə imkan verir. Lakin, görünür, bu mənzərəni bizi maraqlandıran ərazidə 20-dən artıq alban tayfasının mövcudluğu faktı ilə tutuşdurmaq lazım deyildir. Alban tayfaları arasındakı fərqlər haqqında biz yalnız müxtəlif fərziyyələr, mülahizələr irəli sürə bilərik.

Görünür, bu fərqlər dağlı Qafqaz etnodil ümumiliyi çərçivəsinə sığışdırıla bilər. Arxeoloji materiallar da bunu təsdiqləyir. İçərisində sıx bükülü skeletlər olan torpaq qəbirlər geniş yayılmış Yaloylutəpə mədəniyyətinin materialları, bir qədər sonralar isə onunla mövcud olmuş və ondan sonra bir neçə əsr ərzində yaşamış, Albaniya isə qonşu olan vilayətlərdə də məlum olan küp qəbirləri mədəniyyəti alban tayfalarının vəhdətinin arxeoloji inikasıdır.

Yaloylutəpə mədəniyyətinin materialları nəinki bizi maraqlandıran vilayətin Ön Asiya(kökləri ilə bağlıdır) və Şərqi Aralıq dənizi sakinləri ilə əlaqələri haqqında danışmağa, habelə güman etməyə imkan verir ki, bu mədəniyyətin aparıcı tipləri ola bilsin, genetik baxımdan, geniş Öz Asiya kökləri ilə bağlıdır. Burada yada salmaq lazımdır ki, alban dili Şimali Qafqazdan başlamış Aralıq dənizindəki adalaradək olan vilayətlərinin sakinlərinin danışdıqları dillər ailəsinə aiddir. Əlbəttə, bununla biz maddi mədəniyyətlə dil arasında bərabərlik işarəsi qoymuruq. Lakin göstərilən maraqlı faktı qeyd etməyə bilməzdik.

Növbəti məqaləmizdə Albaniyada dəfn və başqa mədəniyyətlərdən söhbət açmağa çalışacağıq.

**Mirazim SƏMƏDOV,**
**Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun elmi işçisi.**